**İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının 2015 aprel- 2016 aprel dövründəki bir illik fəaliyyətinin**

**Hesabatı**

İctimai teleradionun hörmətli tamaşaçıları və dinləyiciləri!

Bu ilin avqust ayında İctimai teleradionun 11 illik fəaliyyəti tamam olur. Azərbaycan cəmiyyətinin sosial sifarişi ilə, Azərbaycan dövlətinin demokratik dəyərlərə yüksək münasibətinin nəticəsi olaraq 2005-ci il avqustun 29-da efirə çıxan İctimai televiziya və 4 ay sonra ona qoşulan İctimai radio ötən illər ərzində dövlətçiliyimizin qorunması və daha da inkişaf etdirilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və zənginləşdirilməsi, cəmiyyətin bilgiləndirilməsi və müntəzəm maarifləndirilməsi sahəsində əlindən gələni əsigəməmişdir. Obyektiv yaradıcılıq müsabiqələri əsasında formalaşmış yaradıcı və texniki əməkdaşları əhatə edən böyük bir kollektiv özünün bütün fəaliyyətini qərəzsiz, dəqiq, obyektiv, vicdanlı, ədalətli informasiya üzərində qurmuş, ayrı-ayrı proqram formatlarında cəmiyyəti maraqlandıran, narahat edən problemləri müzakirə müstəvisinə çıxararaq onların həllinə aparan yolların xalqın dilindən eşidilməsinə nail olmuşdur.

İctimai teleradio bütün məqamlarda yalnız ictimai maraq prinsiplərinə söykənmiş, qloballaşan dünyada milli dəyərlərimizin qorunub saxlanılması və zənginləşdirilməsi, dilimizin, tariximizin, elmi nailiyyətlərimizin, ölkəmizin inkişafına dəstək vermişdir. Bu barədə mediada geniş müzakirələr olmuş, ictimai teleradionun öz efirində müzakirələr aparılmış, cəmiyyətin bir sıra təbəqələrini əhatə edən ekspertlərin, respondebtlərin, bütövlükdə xalqa sözü olan ziyalıların iştirakı ilə müzakirələr aparılmışdır. Cəmiyyətin, xalqın, obyektiv jurnalistikanın irad və təklifləri daim izlənilmiş və Yayım Şurasının iclaslarında qiymətləndirilmişdir.

Bir daha xatırlatmaq yerinə düşərdi ki, bir illik hesabatını təqdim etdiyimiz Yayım Şurası "İctimai Televiziya və Radio Yayımları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən İctimai teleradioya ictimai nəzarəti həyata keçirir. Bu gün fəaliyyətinin on ikinci ilinə qədəm qoyan Yayım Şurası bütün bu illər ərzində, habelə ötən bir ildə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün əlindən gələni əsirgəməmişdir və onu da qeyd edək ki, Yayım Şurası müstəqil, obyektiv, heç bir dövlət orqanlarından asılı olmayan ictimai şəxslərdən formalaşdığı kimi, vaxtaşırı olaraq onun üzvlərinin fəaliyyət müddətinin bitməsi ilə yeniləşmişdir. Yayım Şurası hazırda aşağıdakı tərkibdən ibarətdir.

1. Cahangir Əbdüləli oğlu Məmmədli - sədr, Bakı Dövlət Universiteti Jurnalistikanın Nəzəriyyəsi və Təcrübəsi kafedrasının müdiri, professor;

2. Muxtar Kazım oğlu İmanov - filologiya elmləri doktoru, professor, AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü;

3. Sevil Şərif qızı Yusifova - Azərbaycan Jurnalist Qadınlar Assosiasiyasının prezidenti;

4. Zemfira Həsən qızı Qafarova - musiqişünas, pedaqoq, sənətşünaslıq namizədi, Bakı Musiqi Akademiyasının musiqi tarixi kafedrasının aparıcı müəllimi, professoru;

5. Mirhəsən Mirheydər oğlu Seyidov - İrəli İctimai Birliyinin sədri;

6. Vüqar Eldar oğlu Zeynalov - “Müller İnteryer” şirkətlər qrupunun təsisçisi və baş direktoru;

7. Yusif Məmməd oğlu Babanlı - Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru, Azərbaycan Boks Federasiyasının İcraiyyə Komitəsinin üzvü, professor, pedaqogika üzrə fəlsəfə doktoru;

8. Aqil İsaq oğlu Dadaşov - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini;

9. Fuad İzzət oğlu Nurullayev - Qafqaz Müsəlmanları İdarəsi sədrinin müşaviri;

Göründüyü kimi, İctimai teleradio Yayım Şurasının üzvləri cəmiyyət arasında elmi, ictimai fəaliyyəti ilə tanınan insanlardır və onların İctimai teleradionun fəaliyyətinə nəzarətindəki obyektivlik meyarı elə təkcə bununla ölçülə bilər.

Yayım Şurasının cəmiyyət qarşısında öhdəliyi çox məsuliyyətlidir. Bu məsuliyyət və bu vəzifələr İctimai teleradionun müsabiqə yolu ilə Baş direktorunun seçilməsi, rəhbər kadrların formalaşması, yaradıcı və texniki idarəetmə strukturlarının yaradılması, proqram formatlarının təsdiqi, büdcə xərclərinin nizamlanması və.s. kimi onlarca məsələləri əhatə edir. Bu vəzifələrin həyata keçirilməsi bitib-tükənmyən zaman tələb edir və yalnız ictimai əsaslarla fəaliyyət göstərən Yayım Şurasının fəaliyyəti cəmiyyət tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. Doğrudur, İctimai televiziyanın tipoloji xarakterinə məhəl qoymayıb bu qurumdan siyasi məqsədlər üçün istifadə etməyi tələb edən bəzi "ekspertlər"də mövcuddur. Yayım Şurası yalnız "İctimai Televiziya və Radio Yayımları haqqında" Azərbaycan Respublikasının Avropa Şurasının ekspertləri tərəfindən bəyənilmiş Qanununa əsaslanmış və dövlətçiliyə, azərbaycançılğa xidməti heç nəyə güzəşt etməmişdir.

Konkret olaraq 2015-cü ilin mart - 2016-ci ilin mart ayı arasındakı bir illik fəaliyyətimiz haqqında məlumat vermək istərdik. Bununla əlaqədar qeyd etmək istərdik ki, 2013-cü ilin aprel ayında İctiamai teleradioya müsabiqə yolu ilə Baş direktor seçilmiş Cəmil Quliyev fəaliyyətinin ötən üç ili

müddətində qurumun işində həm təşkilati, həm də peşəkarlıq istiqamətində xeyli yeniliklər həyata keçirmişdir. Xüsusilə Baş direktor fəaliyyətinin ilk dövründə təşkilati məsələləri həll etmiş, bundan sonra isə teleradioda peşəkarlıq istiqamətinin yeni parametrlərini müəyyənləşdirmişdir. Bütün bunlar Yayım Şurasının ilboyu müntəzəm keçirilən iclaslarında müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir. Bu sırada teleradio qurumunun strukturlarında bəzi dəyişikliklər, departament rəhbərliyinin daha da təkmilləşdirilməsi, yeni proqram formatlarının yaradılması, yeni studiyaların təşkili, binanın təmirə ehtiyacı olan hissələrinin təmir edilməsi və.s onlarca məsələləri qeyd etmək olar.

İctimai Teleradio Yayım Şurasının, qanuna müvafiq olaraq, azı 6 ayda bir dəfə iclası keçirilməlidir. 2015-2016-cı fəaliyyət ilində Yayım Şurasının 6 iclası keçirilmişdir. Şuranın yanvar iclasında İTRŞ-nın Baş direktorunun 2015-ci il üzrə maliyyə hesabatı dinlənib müzakirə edilmiş, 2015-ci il üzrə smeta xərclərinin maddələr üzrə təsnifatı təsdiq edilmiş, yeni strukturların və ştat cədvəlinin dəqiqləşdirilməsi aparılmışdır.

Yayım Şurası 2015-ci ilin fevral iclasında İTRŞ-da bəzi sturuktur dəyişiklikləri, Yayım Şurasının 2015-ci il üçün iş planı müzakirə edilib qərar çıxarılmışdır. Şuranın 2015-ci il mart iclasında Yayım Şurasının 2014 mart – 2015 mart dövründəki fəaliyyətinin hesabatı dinlənilib, ictimaiyyətə təqdim edilmiş, Baş direktorun bəzi struktur dəyişiklikləri ilə bağlı təkliflərinə baxılmışdır.

Şuranın iyun iclasında Milli Teleradio Şurasının İTRYŞ-ya ünvanladığı məktubu müzakirə edilmiş, yeni rəhbər kadrların təsdiqi məsələsinə baxılmışdır.

Şuranın iyul iclasında İTRYŞ-nın "Bakı 2015 – ilk Avropa oyunları" ilə bağlı fəaliyyəti haqqında, İTRYŞ-nın qarşıdakı 10 illik yubileyi ilə bağlı

tədbirlər planı, Yayım Şurasının müxtəlif proqramlarla bağlı monitorinqinin aparılması ətrafında məsələlər gündəmdə olmuşdur. Şuranın dekabr iclasında İTRYŞ-nın Baş direktorunun 2015-ci il üçün maliyyə hesabatı və 2016-ci il üçün smeta xərcləri müzakirəyə çıxarılmışdır.

Qeyd olunan iclasların hər birində teleradioda peşəkarlıq problemləri,proqramların efirə getmiş tematikaları, plüralizm, maarifçilik missiyasının yerinə yetirilməsi səviyyəsi, rəhbər kadrların işinin təkmilləşdirilməsi, mediada yer alan fikirlər və s. ətrafında müzakirələr aparılmışdır. Yayım Şurası işə yeni qəbul olunan hər bir rəhbər kadrın bioqrafiyası, yaradıcılıq imkanları, peşəkarlıq təcrübəsi kimi faktları onun özünün yaradıcılıq planları kimi məsələləri müzakirə edərək, kadrın yararlı olub-olmamasını müəyyənləşdirmişdir. Bütün bunların nəticəsidir ki, yaradıcılıq sahəsində aşağıdakı mənzərə meydana çıxmışdır.

Məlumdur ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin əsas fəaliyyət istiqamətlərindən biri İnformasiya və ictimai-siyasi proqramlar departamentinin işi ilə bağlıdır. Bu departament özünün xəbər proqramları və bir sıra analitik verilişləri ilə artıq çoxdan tamaşaçı rəğbətini qazanmışdır. Bir sıra özəl TV kanallarının reklam bazarı uğrunda mübarizə ilə bağlı müxtəlif xoşagəlməz proqram formatlarından fərqli olaraq, İctimai teleradio özünün əsas vəzifəsini - bilgiləndirmək, maarifləndirmək işini uğurla yerinə yetirməkdədir. Doğrudur, yuxarıda qeyd etdiyimiz kimi, İctimai teleradionun tipoloji xarakterini nəzərə almaq istəməyən bəzi "ekspertlərin" tənqidinə məruz qalsa da, İnformasiya və ictimai-siyasi proqramlar departamenti Azərbaycan dövlətçiliyi, azərbaycançılıq mövqeyindən çıxış etmiş, özünün təqdim etdiyi informasiyalarda vətəndaşlıq mövqeyini əsas tutmuşdur. Bu istiqamət - İnformasiya və ictimai-siyasi proqramlar departamentinin milli maraqlar istiqaməti, habelə peşəkarlıq fəaliyyəti Yayım Şurasının hər

iclasında müzakirə obyekti olmuş, müsbət faktlar, nöqsanlı cəhətlər qeyd edilmişdir. Lakin bütün hallarda bu departamentin fəaliyyəti Şura tərəfindən müsbət qiymətləndirilmişdir.

İctimai Televiziya və Radio Yayımları Şirkəti son bir il ərzində informasiya və ictimai-siyasi proqramlarının fəaliyyət dairəsini genişləndirib və yeni tendensiyalara uyğun müvafiq layihələr hazırlayaraq tamaşaçı və dinləyicilərə təqdim etmişdir. Əsas informasiya proqramı olan "Carçı"nın peşəkarlıq və operativlik imkanları xeyli genişləndirilib. Gün ərzində bir dəfə rus dilində olmaqla ümumilikdə beş dəfə tamaşaçılara təqdim edilən informasiya buraxılışlarında "İctimai televiziya və radio yayımı haqqında" Qanunun bütün müddəalarına riayət edilməsinə ciddi nəzarət olunur. Ölkənin bölgələrindən informasiyaları daha böyük auditoriyaya çatdırmaq üçün həftənin altı günü axşam saat 21:05-də efirə çıxan "Carçı Region" proqramı artıq iki ildir ki, fəaliyyət göstərir. Ölkə iqtisadiyyatının inkişaf istiqamətlərinin yeni hədəfləri bu proqramda xüsusi nəzərə alınıb, xüsusilə, dünyada neftin qiymətinin kəskin aşağı düşməsi, bununla əlaqədar olaraq ölkədə manatın devalvasiyası və bütün bunlardan çıxış yollarını göstərən ölkə Prezidentinin tezisləri "Carçı"nın aparıcı mövzuları kimi təqdim olunmaqdadır. Fikrimizi konkretləşdirsək deyə bilərik ki, "Carçı" informasiya proqramı İTV-nin fəaliyyətində əsas yer tutur, həm də ona görə ki, bu proqram ölkənin və dünyanın informasiya mənzərəsini yaratmaqla, cəmiyyətin bilgiləndirilməsi və maarifləndirilməsi işinə xidmət edir.

Əslində "Carçı" informasiya proqramının törəməsi olan "Həftənin yekunu" həm populyar, həm də intellektual təqdimat üsulu ilə həftə ərzində ölkədə və beynəlxalq aləmdə baş verən hadisələrin analitik təhlili ilə böyük iş görməkdədir.

Yayım Şurası vaxtaşırı olaraq bütün proqram formatlarının peşəkarlıq keyfiyyətini diqqədə saxlayır və öz iclaslarında hər dəfə şura üzvlərinin həmin məsələ ətrafında qeydlərini müzakirə edir. Yayım Şurası bir sıra analitik proqramların səmərəsini qiymətləndirməkdədir. Bu sırada qeyd etmək yerinə düşərdi ki, cəmiyyəti narahat edən bəzi sosial yüklü mövzular fərqli formatda "Müzakirə vaxtı" ilə ekranlara gətirilir. Həftənin ən aktual sosial-iqtisadi yenilikləri "Diqqət Mərkəzi" verilişi vasitəsilə izləyicilərin diqqətinə çatdırlır. Ən mühüm ictimai-siyasi məsələlər ölkənin tanınmış ictimai-siyasi xadimlərinin iştirakı ilə "Ortaq Məxrəc" tok-şousunda müzakirəyə çıxarılır. Artıq bir ilə yaxındır ki, "Aktual mövzu" analitik proqramı efirdə fəaliyyət göstərir. Bu proqram, adından da göründüyü kimi, ən aktual hadisələri, həmin problemlərin daxili mahiyyətinə yaxından bələd olan ekspertlərlə müzakirəyə çıxarır. Müzakirəyə çıxarılan məsələlərin hamısına ictimai maraq prinsipindən yanaşılır və Yayım Şurası bu tipli proqramların cəmiyyətə gərəkli olduğunu bir daha vurğulayır.

Son vaxtlar İTV-nin efirində özünü göstərən "Media və zaman" proqramı da Yayım Şurasının dəstəklədiyi verilişlər sırasındadır. Tamaşaçı "Yadigarlar" proqramında xalq yolunda, millət, dövlət yolunda xüsusi xidmətləri olan insanlar barədə dialoq, poliloq söhbətlərinin şahidi olur.

Son zamanlar müntəzəm olaraq, ayda iki dəfə efirə gedən "Qarabağ həqiqətləri" proqramı Qarabağ porblemini çox müxtəlif istiqamətlərdən müzakirəyə çıxarır və xüsusi qeyd edək ki, bu proqram mediada müsbət qiymətləndirilməkdədir. Çünki, proqramın aparıcısı da, proqrama dəvət olunan qonaqlar da Qarabağ problemlərinə çox yaxşı bələd olan insanlardır.

İctimai Radio vasitəsilə də informasiya və ictimai-siyasi proqramların yayımına xüsusi diqqət yetirilir. Gün ərzində səhər saat 9-da fəaliyyətə başlayan İctimai radionun xəbər buraxılışları günün yekunu olaraq 20:30-da

əsas xəbər buraxılışı ilə daha dolğun və ətraflı şəkildə efirə verilir. Radio xəbərlərinin operativliyi nəzarətdə saxlanılır və gün ərzində müxtəlif bağlantılar vasitəsilə çevik informasiya təminatı aparılır. Hər gün saat 12-də "Türkiyənin Səsi" radiosu ilə birgə "Qorqud Ata" layihəsində Azərbaycan, Türkiyə, o cümlədən türk dünyası ilə bağlı informasiyalar dinləyicilərə təqdim olunur. Yeni ictimai-siyasi proqramların hazılanması istiqamətində də əməli işlər görülməkdədir. Bu qəbildən hər həftənin şənbə günü saat 17:10-da siyasi şərhçilərin iştirakı ilə efirə gedən "Qarabağ həftəsi" və hər həftənin birinci günü saat 12:25-də efirə gedən "Azərbaycan Gündəmi" proqramlarını xüsusi qeyd etmək lazımdır. Bütün bu proqramların peşəkarlıq problemləri Yayım Şurasının diqqət mərkəzindədir.

İctimai Televiziya və Radio Yayımları Şirkətinin bir sıra önəmli departamentləri var ki, Yayım Şurası öz iclaslarında bu departamentlərin fəaliyyətini vaxtaşırı olaraq müzakirəyə çıxarır və onaların fəaliyyəti ilə bağlı müvafiq qərarlar qəbul edir. Bu sırada Hüquq və Beynəlxalq Əlaqələr Departamentinin Fəaliyyətini xüsusi qeyd etmək istərdik. Ötən il ərzində bu departament Azərbaycanın futbol üzrə yığma komandasının Avro 2016 seçmə mərhələnin təsnifat oyunlarının canlı yayımı ilə bağlı təşkilati işləri ilə bilavasitə məşğul olmuşdur. Yığma komandamızın 6 təsnifat oyunlarının yayımları İctimai TV tərəfindən UEFA standartlarına uyğun olaraq təşkil edilib, oyundan qabaq bütün texniki hazırlıqlar kompleks şəkildə rejissor və operator işlərinin qurulmasında və koordinasiya işlərinin görülməsində Departament yaxından iştirak etmişdir. İctimai Televiziya bu oyunların yayımlanması üzrə eksklüziv hüquqlara malikdir.

2015-ci ilin may ayında Avstriyanın Vyana şəhərində keçirilən Eurovision mahnı müsabiqəsi İctimai televiziya tərəfindən canlı və ekskluziv əsasda yayımlanmışdır. İctimai Televiziyanın Hüquq və Beynəlxalq Əlaqələr

Departamentinin əməkdaşlarından təşkil olunmuş nümayəndələr yayımın ev sahibi olan ölkədən canlı şərhini həyata keçirmiş və ölkəmizi müsabiqədə uğurla təmsil etmişdir.

Ötən il ərzində fəaliyyətini qeyd etmək istədiyimiz departamentlərdən biri də "Gənclər, elm və təhsil departamenti"dir.

Hesabat dövründə "Gənclər, elm və təhsil departamenti" verilişlərini "İctimai Televiziya və Radio Yayımı haqqında", eləcə də "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarının tələblərinə uyğun şəkildə hazırlayaraq tamaşaçılara təqdim etmişdir. Departament öz fəaliyyətini İctimai yayımın missiyasına, mahiyyətinə, vəzifə və prinsiplərinə uyğun şəkildə quraraq, jurnalistikanın təməl prinsiplərinə sadiq qalmışdır.

Ümumiyyətlə "Gənclər, elm və təhsil departamenti"nin Yayım Şurasına müzakirə və təsdiq üçün təqdim etdiyi proqram formatları xüsusi olaraq İctimai teleradionun maarifçilik missiyası üzərində qurulduğuna görə Şura həmin proqramları təsdiq etməklə bərabər, il ərzində onların müsbət cəhətlərini qeyd etmiş, irad və təkliflərini rəhbərliyin nəzərinə çatdırmışdır.

İctimai teleradionun strukturunda "Səhər proqramları departamenti"nin xüsusi çəkisi var. Bu departament həftə müddətində hər gün 3 saat canlı efirdə maraqlı təqdimatları ilə tamaşaçı rəğbətini çoxdan qazanmışdır. Təsadüfi deyil ki, televiziya tənqidçiləri səhər proqramını "mini televiziya" adlandırırlar. Bu gün yerli teleməkanda müxtəlif səpkili səhər proqramları mövcuddur. İctimai Televiziyanın "Yeni Gün" səhər proqramı bu sırada özünəməxsusluğu və orijinallığı ilə seçilir.

İctimai teleradio rəhbərliyinin təklifi ilə son vaxtlar bu departamentin direktoru dəyişdirilib. Nəticədə "Yeni gün"ün dinamikası, mövzu rəngarəngliyi təmin olunub.

"Yeni gün" daha da təkmilləşərək seçdiyi mövzuların rəngarəngliyinə, təqdim etdiyi sujetlərin aktuallığına, müxtəlif sahələri təmsil edən qonaqların auditoriyasına və s. göstəricilərinə görə maraq doğurur. İzləyici bir neçə saat ərzində zəhmətkeş və istedadlı bir kollektiv tərəfindən hazırlanmış proqramda ölkənin ən müxtəlif peşə adamları, maraqlı insanları ilə ünsiyyətdə olur, canlı musiqi dinləyir, mədəniyyət və incəsənət adamlarının yaradıcılıq planlarından xəbər tutur.

"Yeni Gün" proqramı siyasi baxışlarından, dini görüşlərindən, milli mənsubiyyətindən asılı olmayaraq hamının üzünə açıqdır. Dünya ictimai yayım konsepsiyasının əsas tələblərindən biri də milli, dini azlıqların hüquq və azadlıqlarına xüsusi diqqət yetirməkdir. İctimai Televiziya fəaliyyətə başladığı ilk günlərdən bu konsepsiyanı öz işinin tərkib hissəsi elan edib. 80-dən artıq xalqın nümayəndələrinin yaşadığı Azərbaycanda milli və dini tolerantlığın təbliği, bu məqamın İctimai televiziyanın proqram siyasətinin əsas prinsipinə çevrilməsi vacib şərtdir. Ona görə də bu gün "Yeni Gün"də azsaylı xalqların və milli azlıqların folklor nümunələri geniş təbliğ olunur.
"Yeni gün"ün bayram tədbirləri ilə bağlı fəaliyyəti də xüsusi qeyd edilməlidir.

Yayım Şurası "Carçıfilm" departamentinin fəaliyyətini xüsusi qeyd edir.

İctimai Televiziyanın "Carçıfilm" Yaradıcılıq Birliyində 2015-ci ildə müxtəlif dövrlərdə fəaliyyət göstərən Azərbaycanın məşhur mütəfəkkirləri, elm, mədəniyyət və incəsənət aləmində tanınmış ziyalılarımızın teleportretləri, ölkəmizdə yaşayan müxtəlif xalqların adət-ənənəsini əks etdirən filmlər, eləcə də torpaqlarımız uğrunda şəhid olan oğullarımızın göstərdikləri qəhrəmanlıqlardan bəhs edən 87 sənədli və televiziya filmi istehsal olunaraq tamaşacılara təqdim edilib. Bu filmlər tamaşacılar tərəfindən yüksək maraqla izlənilib. Departament son bir illik fəaliyyətində

onlarca telefilm və portret filmlər yaratmışdır. Bu filmlər sırasında "Çiçək izi", "Qərib məzar", "Günahsız məhbus", "Yurdu yaşatmaq üçün", "Şəhidlər ölməz", "Şəhid, səndən başlanır Vətən", "Masallı abidələri", "Tarixi yaddaşın izləri", "Bizim ellər", "El sənəti", "Zirvədəkilər", "Yanar dağ", "Qusar avidələri", "İstiqlal muzeyi" və digər yaradıcılıq faktlarını qeyd etmək olar.

Kino və Dublyaj departamentinin hesabat ilində gördüyü işlər çoxdur. Əvvəla onu qeyd edək ki, Yayım Şurası özünün 4 fevral 2015-ci il tarixli iclasında Kino və dublyaj departamentini iki fəaliyyət istiqamətinə bölmək təklifini təsdiq etmiş və beləliklə Dublyaj fəaliyyəti ayrıca departamentə çevrilmişdir. Bu departamentin fəaliyyətini qısaca olaraq belə təqdim etmək olar:

2015– ci il ərzində departament tərəfindən 72 bədii, 20 sənədli, 302 cizgi filmi səsləndirilərək efirə verilmişdir.

Dünyada kino yenilikləri, yeni ekran əsərlərini, məşhur aktyor və rejissor yaradıcılığını əks etdirən, eyni zamanda yerli kinoxəbərlər və ekranlaşdırılan təzə filmlər haqqında sujetlər hazırlayan “Film Media" il ərzində 62 portret veriliş efirə çıxarmışdır. Bunlardan bəziləri aşağıdakılardır:

Rasim Ocaqov yaradıcılığı, Kinooperator Kənan Məmmədov, Kinorejissor Nicat Feyzullayev, "Yarasa" filmi, Kinorejissor ve senarist Fikret Əliyev, Əlisəttar Atakişiyev kinorejissor kimi, Kinossenarist Əli Qafarov, Rafiq Qəmbərov operator yaradıcılığı, Zemfira Sadıqova - Azərbaycan Kinosunda, "Nabat" filmi Beynəlxalq festivallarda, Rasim İsmayılov yaradıcılığı , Samil Neczadenin bədii və sənədli film yaradıcılğı , "Axınla üzüaşağı" filmi və.s

İctimai televiziyanın "Musiqi, bədii və əyləncəli verilişlər departamenti" öz proqram formatlarında maarifçilik və əyləncə xarakterini birgə yerinə yetirir. Bu departamentin tamaşaçılara təqdim etdiyi və əslində

"əyləncə" hesab olunan verilişlərin böyük əksəriyyəti həm də maarifçilik xarakteri daşıyır. Yəqin ki, tamaşaçılar təqdim olunan "Sənətkar", "Caz saatı", "Bakı vaxtı ilə", "Ozan məclisi", "Qadın dünyası", "Teleportret", "Yadigarlar ", "Ötən əsrin nəğmələri" və s. neçə-neçə proqramın həm də maarifçilik xarakterinə yaxşı bələddirlər. Xüsusilə "Yadigarlar", "Ozan məclisi" kimi teleproqramların yüksək yaradıcılıq keyfiyyəti Yayım Şurasının təqdir etdiyi səviyyəli proqramlar sırasındadır.

Heç kəsə sirr deyil ki, qloballaşan dünyada klassik musiqiyə gənclərin marağı zəifləmişdir. Yayım Şurasının təklifi ilə İTV klassik musiqinin təbliğinə xüsusi əhəmiyyət verməkdədir. Bu sahənin inkişafına "Klassik musiqimiz" verilişi də öz tövhəsini verir.

İctimai Radionun fəaliyyəti də daim Yayım Şurasının diqqət mərkəzindədir. İctimai radionun bir sıra maarifçi proqramları diqqəti cəlb edir. Əlbəttə, burada da ilk növbədə radionun xəbərlər departamentinin fəaliyyəti barədə bir daha danışmaq lazım gəlir. Radionun xəbərləri bütün gün ərzində-səhər saat 9-dan axşam saat 9-dək efirə çıxır və Azərbaycanın, dünyanın hər saatla bağlı xəbərlərini dinləyicilərə çatdırır.

İctimai Radionun "Türkiyənin səsi" Radiosu ilə birgə layihəsi olan və hər gün - bazar günü də daxil olmaqla - saat 12-də efirə çıxan "Qorqud ata" proqramı, xeyli vaxtdan bəri fəaliyyət göstərən "Vətən tarixi", "Bura Azərbaycandır", "Tarixdə yaşayanlar", "Qarabağ tarixi", "Azərbaycan inciləri", "Bir bizdən, bir sizdən" kimi yeni layihələri ilə Azərbaycanı dünyaya tanıtmaqdadır. Yayım Şurası bu tipli layihələri dəstəkləmiş və onlara öz xeyir-dualarını vermişdir.

İctimai Radionun "Gənc saat", "Sport time", "Xəbərdar" kimi proqramları da Yayım Şurasının diqqət mərkəzindədir. Radionun Ədəbiyyat və İncəsənət departamentinin meydana qoyduğu "Harmoniya", "Söz yolçusu", "Şərq-qərb", "Kinoda yaşanan ömür", "Səhnə həyatı", "Sözümüz-

özümüz", "Həmişə istirahətdə" və s. verilişləri ədəbiyyat və sənət adamlarımızın həyat yolunu, digər məsələləri gündəmə gətirir.

Radionun Musiqi və Əyləncəli verilişlər departamenti tərəfindən efirə çıxan "Yeni gün", "Music box", "Hit parad", "Dahiləri anarkən", "Dünya inciləri", "Muğam dünyası", "Fərqli nahar" və s. proqramlar öz məzmun və xarakteri ilə maarifləndirmək və əyləndirmək funksiyasını eyni vaxtda yerinə yetirir ki, bütün bunlar həm yaradıcı kollektivin, həm də bu kollektivin yaradıcılıq prinsiplərini müzakirə edən Yayım Şurasının birgə əməyinin nəticəsidir.

Bütün bunlarla yanaşı, İctimai teleradionun fəaliyyətində Yayım Şurasını qane etməyən bir sıra problemlər də mövcuddur. Şura məktəbli gənclərin milli-mənəvi tərbiyəsinə xidmət edən maarifçi proqramları daha da gücləndirməyi, bir sıra departamentlərin fəaliyyətində yeni formatların tətbiqi, proqram aparıcılarının peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi və s. kimi məsələlərə diqqət yetirilməsini tövsiyə edir. Belə problemləri Yayım Şurası öz iclaslarında rəhbərliyin nəzərinə çatdırır və onların aradan qaldırılması yolları barədə təkliflərini verir.

Dediklərimizi yekunlaşdıraraq belə bir nəticəyə gəlmək mümkündür ki, İctimai Televiziya və Radio həmişə olduğu kimi, bu hesabat ilində də Azərbaycanın milli maraqlarına xidmət etmiş, dövlətçilik və millilik prinsiplərini əsas tutaraq öz fəaliyyətini yüksək peşəkarlıqla davam etdirmişdir.

Hesabat İctimai Televiziya və Radio Yayım Şurasının iclasında müzakirə edilmiş və ictimaiyyətə çatırılması üçün İTRYŞ-nın saytına yerləşdirilməsi qərara alınmışdır.

İctimai Televiziya və Radio
Yayım Şurasının sədri: C. Məmmədli